# İlham Əliyevin “Yeni Daşkəsən” layihəsi uğurla reallaşır







Son 13 ildə Azərbaycanın bütün bölgələri dəyişib, inkişaf edib. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində rayonların iqtisadiyyatı daha da möhkəmlənib, əhalinin yaşayış səviyyəsi yaxşılaşıb. Bölgələrdə geniş abadlıq və quruculuq işləri aparılıb. Prezident İlham Əliyevin sərəncam və göstərişləri əsasında həyata keçirilən bu işlər hər bir bölgənin inkişaf strategiyasına uyğun görülüb. Regionlarda səngiməyən abadlıq-quruculuq işləri ölkəmizin kompleks inkişafını təmin edir.

## Möhtəşəm quruculuq meydanı

Ölkəmizdə iqtisadi artım daha çox qeyri-neft sektorunun hesabına təmin edilib. Azərbaycan iqtisadiyyatı dünyada müşahidə olunan ağır problemlərin öhdəsindən layiqincə gəlib ki, bu da qarşıdan gələn dövrdə yeni iqtisadi uğurların əldə ediləcəyinə zəmanət verir. Qazanılan uğurlarda isə Azərbaycanın hər bir iqtisadi zonasının, hər bir şəhər və rayonunun böyük rolu var. Dağlar qoynunda yerləşən Daşkəsən də ölkəmizin inkişafına öz layiqli töhfələrini verməkdədir.

Azərbaycan Prezidenti İlham Əliyevin göstəriş və tapşırıqları, dövlət proqramlarının icrası əsasında respublikamızın bütün bölgələrində olduğu kimi, Daşkəsən rayonunda da geniş tikinti, quruculuq, abadlıq işləri aparılır, ucqar dağ kəndlərinə yollar çəkilir, körpülər inşa olunur, su, elektrik, qaz təchizatı yaxşılaşdırılır. Ona görə Daşkəsənə daxil olanda diqqətimizi son bir neçə ildə aparılan və bütövlükdə bu ucqar dağ rayonunun simasını dəyişən abadlıq və quruculuq işləri oldu. Yeni çəkilən və genişləndirilən yollar, ucqar dağ kəndlərini birləşdirən, xüsusən uzun illərdir ilin soyuq aylarında yolsuzluqdan əziyyət çəkən sakinlərin gediş-gəlişini asanlaşdıran təzə körpülər Daşkəsənin müasir simasını, o cümlədən yüksəlişini əks etdirən yeniliklərdir.

Xatırladaq ki, Daşkəsən Azərbaycan SSR-də inzibati rayon kimi 1930-cu ildə təşkil edilib. Ərazisi 1046 kv.km, əhalisi 35 min nəfərə yaxındır. Rayonda 1 şəhər, 5 qəsəbə və 43 kənd var. Bu gün Daşkəsənə ayaq basan hər kəs elə ilk addımda rayonun son illərdə keçdiyi inkişaf yolunun, quruculuq və abadlıq işlərinin şahidi olur. Ölkəmizin hər yerində son illərdə geniş vüsət alan yenidənqurma və abadlıq işləri Daşkəsənin timsalında aydın görünür.

Rayonda Azərbaycan dövlətçiliyinin möhkəm əsaslar üzərində qurulmasında, respublikanın hərtərəfli inkişafında müstəsna xidmətləri olan ümummilli lider Heydər Əliyevin xatirəsi layiqincə əbədiləşdirilib. Ümummilli liderin adını daşıyan park daşkəsənlilərin ən sevimli istirahət yerlərindəndir. Daşkəsən şəhərinin mərkəzində ulu öndərin abidəsi ucaldılıb. 2014-cü il oktyabrın 17-də Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Daşkəsəndə Heydər Əliyev Mərkəzinin açılışında iştirak ediblər. Azərbaycanın Heydər Əliyev irsinə əsaslanan davamlı inkişaf konsepsiyasının mahiyyətinin aydın şəkildə öyrənilməsində, ulu öndərin irsinin gənc və böyüməkdə olan nəslə çatdırılmasında mühüm rol oynayan bu mərkəz həm də Daşkəsən şəhərinin görkəminə xüsusi gözəllik verir.

Həmin səfərdən sonra Prezident İlham Əliyev Daşkəsən şəhərində abadlıq-quruculuq işlərinin davam etdirilməsini, habelə “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nda rayon üzrə müəyyən olunmuş tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədilə 2 milyon manat ayrılması barədə sərəncam imzalayıb.

Xatırladaq ki, Prezident İlham Əliyevin bundan əvvəl, 2012-ci il aprelin 2-də imzaladığı sərəncamla üç min nəfər əhalinin yaşadığı 13 yaşayış məntəqəsini birləşdirən Zağalı-Kollu-Çıraqlı avtomobil yolunun tikintisi məqsədilə 2012-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Prezidentinin Ehtiyat Fondundan Daşkəsən Rayon İcra Hakimiyyətinə ilkin olaraq 3 milyon manat ayrılıb. Prezident İlham Əliyevin 10 yanvar 2013-cü il tarixli sərəncamı ilə isə Daşkəsən rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsi məqsədilə rayon icra hakimiyyətinə Prezidentin Ehtiyat Fondundan 2 milyon manat ayrılıb. Beləliklə, son illər Daşkəsənin sosial-iqtisadi inkişafının sürətləndirilməsi üçün Prezidentin Ehtiyat Fondundan 4 milyon manat ayrılıb.

Bütün bunların nəticəsi olaraq Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair dövlət proqramları ölkənin bütün bölgələrində olduğu kimi, Daşkəsən rayonunda da uğurla reallaşır. Ümumiyyətlə, son illər rayonda mühüm layihələr həyata keçirilib. Mərkəzi kitabxana, mərkəzi rayon xəstəxanası, əlil, şəhid ailələri və qəzalı vəziyyətdə olan yaşayış evlərinin sakinləri üçün ümumilikdə 80 mənzilli 5 yaşayış binası, rayon icra hakimiyyətinin, statistika idarəsinin yeni inzibati binaları, avtovağzal kompleksi, 13 ümumtəhsil məktəb və digər sosialyönümlü obyektlər tikilib, Gənclərin təlim və istirahət mərkəzi açılıb. “Daşkəsən Filizsaflaşdırma” kombinatının fəaliyyəti bərpa olunub, 2 dəmir yolu körpüsü əsaslı təmir edilib, asfalt və Çovdar qızıl zavodları və tutumu 1000 ton olan soyuducu anbar kompleksi istifadəyə verilib, geniş abadlıq-quruculuq işləri aparılıb. Daşkəsən şəhərinin kanalizasiya sistemi, küçələrinin işıqlandırma sistemi yenidən qurulub, yaşayış binalarında bərpa-gücləndirmə işləri aparılıb, mədəniyyət evinin, yaşayış binalarının dam örtükləri təmir edilib, Bayraq meydanı yaradılıb.













Son illər Daşkəsəndə rayondaxili yolların yenidən qurulması istiqamətində mühüm işlər görülüb. Xüsusən, bir neçə il öncə Prezident İlham Əliyevin sərəncamı ilə ayrılmış vəsait hesabına uzunluğu 47,4 km olan Gəncə-Daşkəsən-Xoşbulaq avtomobil yolu əsaslı təmir olunub. Bütün bunlar onu göstərir ki, Azərbaycanda hər bir sahədə həyata keçirilən siyasət Daşkəsəndə də uğurla reallaşır. Yeni istifadəyə verilən hər bir ünvan isə bütövlükdə rayonun simasını gözəlləşdirir, dağlar qoynunda yerləşən Daşkəsənin gözəlliyinə, sosial-iqtisadi inkişafına yeni töhfələr verir.





## Daşkəsən bu ili də uğurla başa vurur

2016-cı ildə əvvəlki illərdə olduğu kimi, rayonun sosial-iqtisadi həyatında mühüm irəliləyişlər baş verib. Xüsusən, iqtisadiyyatın əsas sahələrində istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi əvvəlki ilə nisbətən müxtəlif sahələr üzrə xeyli artıb. Bütövlükdə isə bu ilin ötən dövründə məhsul buraxılışının həcmi 2015-ci ilin müvafiq dövrünə nisbətən əhəmiyyətli dərəcədə çoxalıb.

Son vaxtlar Daşkəsən Rayon İcra Hakimiyyəti tərəfindən aparılan ardıcıl, məqsədyönlü tədbirlər nəticəsində yaxın gələcəkdə də Daşkəsən rayonunda yeni müəssisələrin yaradılması və bir sıra irimiqyaslı tikinti, təmir-bərpa işlərinin həyata keçirilməsi, sosial layihələrin icrası nəzərdə tutulur.

Daşkəsən iqtisadiyyatı daha çox aqrar sferanı əhatə edir. Təsadüfi deyil ki, 2016-cı ilin məhsulu üçün 641 ha sahədə taxıl səpilmişdir. Hazırda rayonda 2 kartofçuluq, 2 taxılçılıq üzrə toxumçuluq təsərrüfatları, 1 damazlıq arıçılıq və 1 damazlıq mal-qara təsərrüfatı fəaliyyət göstərir. Gələcəkdə toxumçuluq və damazlıq təsərrüfatlarının artırılması üçün işlər aparılır. Heyvanların cins tərkibinin yaxşılaşdırılması məqsədilə 5 kənddə (Quşçu, Mollahəsənli, Əmirvar, Bayan, Qabaqtəpə kəndlərində) süni mayalama məntəqələri fəaliyyət göstərir. Məntəqələrin sayının artırılması üçün işlər davam etdirilir.

İlin ötən dövründə rayonda bir sıra təmir-tikinti və abadlıq işləri də görülüb. Quşçu həkim məntəqəsində, Zinzahal kənd klubunda və Əhmədli kənd mədəniyyət evində təmir işləri aparılıb. N.Nərimanov adına 3 saylı tam orta məktəbin dam örtüyü, Daşkəsən qəsəbə tam orta məktəbin döşəməsi yenisi ilə əvəz olunub. Daşkəsən şəhərində 7 çoxmərtəbəli yaşayış binası təmir edilib. Yeni yaradılmış rayon kənd təsərrüfatı idarəsinin inzibati binasında son tamamlama işləri görülür. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi əsasında Daşkəsən şəhərində, Daşkəsən qəsəbəsində və Qabaqtəpə kəndində Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 3 fərdi yaşayış evinin tikintisinə başlanılıb və hazırda tikinti işləri davam etdirilir. Daşkəsən şəhərində Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün yeni 36 mənzilli yaşayış binasının tikintisi üçün torpaq sahəsi ayrılıb, tezliklə həmin binanın tikintisinə başlanılacaq.

27 avqust 2016-cı ildə Daşkəsən rayonu ərazisində baş vermiş təbii fəlakət nəticəsində rayonda sosial obyektlərə, inzibati və yaşayış binalarına (əsasən Daşkəsən şəhərində çoxmərtəbəli binaların dam örtüklərinə ciddi ziyan dəymişdir), fərdi yaşayış evlərinə, yol, elektrik, rabitə təsərrüfatına ziyan dəymişdir. Ziyanın artmasının qarşısını almaq məqsədilə rayonun daxili imkanları hesabına dəymiş zərərin aradan qaldırılması üçün aidiyyəti üzrə işlər görülmüşdür.

Cari ilin ötən dövründə əhalinin elektrik enerjisi, qaz, istilik, içməli su ilə təchizatı vəziyyətinin yaxşılaşdırılması məqsədilə daxili imkanlar hesabına təmir-bərpa və yenidənqurma işləri həyata keçirilib. Alunitdağ qəsəbəsində 35/6 kv-luq elektrik yarımstansiyası istifadəyə verilib. Daşkəsən rayon elektrik şəbəkəsi tərəfindən 22 ədəd transformator cari təmir edilib, 11,7 km elektrikverici xətlərdə təmir işləri aparılıb,156 ədəd dayaq, 7,4 yararsız naqil yenisi ilə əvəz olunub. Daşkəsən şəhəri üzrə 0,4 kv-luq hava elektrikverici xətlərinin müasir kabellərlə əvəz olunması işləri isə davam edir. Həmçinin ötən dövr ərzində rayonun Zağalı kəndində 82 abonent təbii qazla təmin olunmuş, Xoşbulaq kəndində isə təbii qaz xəttinin çəkilişi davam etdirilmişdir.

## İnkişafdan güc alan təşəbbüs

“Yeni Daşkəsən” ideyası rayonun yüksəlişindən və Prezidentin yürütdüyü inkişaf siyasətindən qaynaqlanır. Rayonun bütün daxili yollarının, körpülərin əsaslı təmiri üzrə Daşkəsən RİH tərəfindən Nazirlər Kabinetinə kompleks layihə təklifləri işlənib təqdim olunub. 3300 nəfər əhalinin yaşadığı 9 yaşayış məntəqəsini birləşdirən 25 kilometr uzunluğunda Daşkəsən-Əmirvar-Qabaqtəpə avtomobil yolunun tikintisi üzrə müvafiq sənədlər aidiyyəti üzrə qurumlara təqdim edilib və bu layihənin həyata keçirilməsi “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na daxil edilib.

Bütün bu məsələlərlə bağlı Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyevin fikirlərini öyrəndik. O dedi: “Digər bölgələr kimi, Daşkəsən rayonu da öz inkişaf dövrünü yaşayır. Dövlət proqramında rayonla bağlı tədbirlərin yüksək səviyyədə yerinə yetirilməsi bu inamı söyləməyə əsas verir. Cari ilin ötən dövrünün sosial-iqtisadi göstəriciləri fonunda bu fikri də əminliklə söyləyə bilərəm ki, 2016-cı il də Azərbaycanın təbii sərvətlərlə zəngin sənaye rayonu olan Daşkəsənin tarixinə ən sürətli inkişaf dövrü kimi yazılacaq. Möhtərəm Prezident İlham Əliyevin bölgələrə səfəri çərçivəsində Daşkəsən rayonu da xüsusi yer tutur. Səfər çərçivəsində ayrı-ayrı sosial obyektlərin açılışında və təməlqoyma mərasimində iştirak edən cənab İlham Əliyevin çıxışlarında hər zaman bu fikir önə çəkilir ki, uğurlarımız gələcəyə daha böyük nikbinliklə baxmağa əsas verir. “Yeni Daşkəsən” layihəsi də cənab Prezidentin yürütdüyü inkişaf siyasətindən qaynaqlanır. Bu layihə bütün rayon ictimaiyyətinin dərin razılığı ilə qarşılanır, bəyənilir və dəstəklənir. Bununla əlaqədar ölkə başçısına, baş nazirə, aidiyyəti nazirliklərə, komitələrə, şirkətlərə müraciətlər olunub. Artıq Nazirlər Kabinetində layihəyə müvafiq qaydada baxılaraq qaldırılan məsələlərin həlli barədə aidiyyəti üzrə nazirliklər, digər qurumlar tərəfindən yazılı surətdə müsbət rəylər alınıb. Hazırda həmin istiqamətdə işlər davam etdirilir”.

Daşkəsən rayonunun yerli büdcəsi 2016-cı ildə də 75,10 faiz dotasiya ilə mərkəzləşmiş xərclərdən ayrılan vəsait hesabına formalaşıb. Bu göstərici 2017-ci il üçün 28,66 faiz təşkil edəcək. “Daşkəsən Filizsaflaşdırma” Açıq Səhmdar Cəmiyyətinin yenidən müasir formada işə salınması nəticəsində bu müəssisənin ayrı-ayrı tədiyələr üzrə vergilərinin yerli büdcəyə daxil olması ilə nəinki Daşkəsən rayonunun yerli büdcəsinin mərkəzləşmiş büdcədən asılılığı sıfıra enəcək, hətta dövlət büdcəsinin mərkəzləşmiş gəlirlərinə böyük məbləğdə əlavə vəsaitlərin ödənilməsinə səbəb olacaq.

Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev bildirdi ki, aparılan ardıcıl, məqsədyönlü tədbirlər nəticəsində yaxın gələcəkdə Daşkəsən rayonunda yeni müəssisələrin yaradılması və bir sıra irimiqyaslı tikinti, təmir-bərpa işlərinin həyata keçirilməsi nəzərdə tutulur: “Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində Daşkəsən rayonu böyük inkişaf yolu keçib. Hər bir daşkəsənli əldə edilən nailiyyətlərə görə dövlət başçısına minnətdardır. Amma biz bu uğurlarla kifayətlənməli deyilik. Ona görə qarşımızda çox məsul və şərəfli vəzifələr durur. Bu vəzifələrin layiqincə yerinə yetirilməsi üçün daha yüksək əzmkarlıq göstərərək bütün daşkəsənlilər qüvvələrini səfərbər edib var gücləri ilə çalışacaqlar. Əminliklə bildirmək istərdim ki, 2016-cı il Daşkəsənin inkişaf dövrü kimi yadda qalacaq”.

Hər bir seçki Daşkəsən rayonunda mütəşəkkil baş tutması ilə yadda qalıb. Ölkə rəhbərliyinin həyata keçirdiyi siyasətə dəstək verən rayon sakinləri daim layiqli namizədləri dəstəkləyiblər. Rayonda referendumun da yüksək səviyyədə təşkili və vətəndaşların seçkilərdə iştirakı üçün hər cür şərait yaradılmışdı. İnkişafının yeni mərhələsini yaşayan Daşkəsən sakinləri seçkilərdə olduğu kimi, referendumda da fəal iştirak edərək Konstitusiyaya təklif olunan dəyişiklikləri dəstəklədilər. Referendum rayonda yüksək səviyyədə, tam ədalətli, demokratik şəraitdə keçirildi və ümumi seçicilərin 65,6 faizi bu siyasi kampaniyada fəal iştirak etdi.

Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət ölkəmizin müstəqilliyini daha da möhkəmləndirdiyi kimi, hər bir şəhər və rayonu da inkişaf yoluna çıxarıb. Bu mənada dağlar diyarı Daşkəsəndə qazanılan nailiyyətlər, həyata keçirilən genişmiqyaslı quruculuq işləri müstəqilliyimizin bəhrəsidir. İnkişaf etməkdə olan rayonun daha da abadlaşdırılması, həyata keçirilən quruculuq işlərinin uğurla davam etdirilməsi, rayon sakinlərinin rahat yaşamaları, çalışmaları və istirahətləri üçün qarşıda mühüm və ciddi vəzifələr durur.

Bu vəzifələrin yerinə yetirilməsi, Prezident İlham Əliyevin müəyyən etdiyi kursun inamla davam etdirilməsi üçün rayon rəhbərliyi və ictimaiyyəti bundan sonra da böyük əzm göstərəcək, üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək, dövlətçiliyimizin möhkəmləndirilməsi, iqtisadiyyatımızın gücləndirilməsi istiqamətində bütün imkanlarını səfərbər edəcəklər.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***













